

# Güzgü

## Məişətimizin bəzəyi

**Qədim insan özünün hansı görkəmdə olduğundan xəbərsiz idi. İlk dəfə yol kənarındakı gölməçənin yanından keçəndə suya düşən əksini görüb hətta xoflanırdı. Ona elə gəlirdi ki, sudan ona kimsə baxır. Elə bilirdilər ki, suya düşən əksləri onların ruhlarıdır.**

Onları qorxuya salan o idi ki, suya düşən əksləri bir daha bədənlərinə qayıtmaz və bununla bədbəxtlik, hətta ölüm hadisəsi baş verər.

Belə təsəvvürlər müasir dövrümüzə qədər gəlib çıxmışdır. Məsələn, evdə ölü olanda güzgünün üzərinə örtük çəkirlər, ya da güzgünün üzünü divara çevirirlər. Qədim insanlar düşünürdülər ki, ölmüş adamın ruhu sağ qalanlarla bədxah münasibətdə olur. Ona görə də sarmatlar (eramızdan əvvəl birinci minilliyin sonunda ön Qafqazda məskən salmış irandilli köçərilər) qəbirə qəsdən sındırılmış güzgü qoyurdular ki, məkansız ruh güzgüdə gizlənə bilməsin və onun o biri dünyaya uçmaqdan savayı çarəsi qalmasın.

Ərəblər güman edirdilər ki, güzgü bəd ruhları əks (dəf) etdirməklə insana xoşbəxtlik gətirir. Çin və ərəb əsgərləri döyüşə yollanmazdan əvvəl boyunlarından güzgü parçaları asırdılar. Çində təzə evlənənlər toy günü ürəklərinin başına güzgü parçaları qoyurdular. Bu yaxınlaradək çinlilər qonşu evlərin hansısa birində bədbəxt hadisə baş verəndə bütün qonşu binaların qapılarından güzgü asırdılar. Sibir şamanları adamları inandırmağa çalışırdılar ki, güzgü gələcəkdən də xəbər verə bilir. Metal çənbərli qədim güzgülərin arxa tərəfində əlində güzgü tutmuş allahların təsvirlərinə - ilahi hakimiyyət atributlarına təsadüf edilir. Budda məbədlərində hazırda da suyu güzgü vasitəsilə müqəddəsləşdirirlər. Bu mərasim zamanı güzgü elə qoyulur ki, buddanın mehrab təsviri güzgüdə əks olunsun. Onun üzərinə tökülən və qayıdan su "müqəddəs su" sayılır. Həmin suyu içir və bütün dindarların üst-başlarına çiləyirlər.

Qədimlərdə Yaponiyada güzgü paklıq rəmzi və əcinnələrə qarşı tilsim sayılırdı. Tunc güzgü günəş diskinin təsviri, məbədlərdə səcdə edilən qüdrətli ilahinin əksi kimi daha artıq ehtirama layiq görülürdü. Adamlar gündə heç olmasa, bir dəfə güzgüyə baxıb öz görünüşlərindən xoşlanmağa ehtiyac duyurdular. Güzgünü istənilən vaxt ələ ala bilmək üçün mizin üstündə saxlayırdılar. Bir yerə gedəndə güzgünü xüsusi hazırlanmış torbaya qoyub özləri ilə aparırdılar.

Arxeoloqlar sarmatların qəbirlərində qaşlar və kirpiklər üçün miniatür boya qabları ilə bərabər, güzgülər də tapmışlar. Lap qədim zamanlarda güzgüləri əsasən tuncdan və gümüşdən hazırlayırdılar. Ona görə ki, həmin materiallardan hazırlanmış güzgülər cisimləri yaxşı əks etdirirdi. Varlılar evlərinə hətta qızıldan və platindən hazırlanmış güzgülər qoyurdular.

Qədim yunanlar dəstəyi heykəltəraşlıq fiqurları görkəmində olan dəyirmi güzgülər hazırlanmasına önəm verirdilər. Belə güzgülərin qıraqlarında qadınların sümük sancaq və iynə qoymaları üçün dəliklər açırdılar.

Antik ustalar güzgüləri mifoloji süjetlərlə bəzəməyi də bacarırdılar. Məsələn, İtaliyada bazarlara dəstəyi Afroditanın fiquru, yaxud Heraklın toppuzu görkəmində çox sayda güzgü çıxarılmışdı.

Bəs güzgüləri nə vaxt şüşədən hazırlamağa başlamışdılar? Romalılar eramızın I əsrində şüşə güzgülər düzəldirdilər. Onların altlığı metaldan, qalay və qurğuşundan olurdu, metal altlığın üzərinə kiçicik şüşə parçaları düzürdülər. Güzgüdən istifadə dövrü uzun çəkmədi. Roma imperiyası dağıldıqdan sonra hakimiyyətə gələn qəddar barbarların güzgüdə öz əkslərini görmək istəyi yox idi. Buna görə də Avropada güzgüyə maraq uzun zaman itmiş və ancaq XVII əsrdə oyanmağa başlamışdı.

Alimlər hesab edirlər ki, Asiyada şüşə güzgü antik dünyadakına nisbətən daha tez meydana gəlmişdir.

Güzgünün tarixi əsasının nə vaxt qoyulduğu məlum olmayan Sidon şəhəri (lüğəti mənası "balıq ovu" deməkdir) ilə əlaqədardır. Bu şəhər qədim Finikiyada Aralıq dənizi sahilində salınmışdı. Qədim Sidon əhalisi parça toxumaq və şüşə güzgü hazırlamaqla məşğul idi.

XII-XIII əsrlərdə səlib yürüşləri dövründə avropalılar Sidona gələndən sonra burada şüşə güzgülərin olması barədə məlumat əldə etmiş, sidonluların ideyalarına sahib çıxaraq özlərinin güzgü texnikasını işləyib hazırlamışlar.

XVIII əsrdə Venetsiyada civənin tətbiqi ilə Venetsiya güzgüsü adı ilə istehsal olunan güzgülər bütün Avropaya yayılmışdı. Həmin güzgüləri köpürdülmə üsulu ilə hazırlayır, səthini əridilmiş qalayla örtür, sındırandan sonra qırıqlarından güzgü kimi istifadə edirdilər. Təsvirləri təhrif etməsinə baxmayaraq həmin güzgü qırıqlarının populyarlıqları böyük idi. Köpürdülmə üsulu ilə istehsal uzun müddət qalmışdı. Təbəqəşəkilli şüşə yalnız XVII əsrdə Fransada meydana gəlmişdi. Həmin dövrdə ilk güzgü zavodları işə salınmağa başlanmışdı.

XVII əsrdə Fransada təbəqə şüşələrin istehsalına başlanması bədənnüma güzgülərin hazırlanması ilə nəticələnmiş, əhalidə belə güzgülərə maraq son dərəcə artmışdı.

Klassizm və barokko da güzgüdən ifrat dərəcədə istifadəyə gətirib çıxarmışdı. Sarayların divarları və kaminlər güzgülərlə bəzədilirdi. XVIII əsr saraylarının dəbdəbəli çərçivələrdə güzgülərlə bəzədilməsi nəticəsində onlar gözqamaşdırıcı təsir bağışlayırdı. Yüzlərlə şam işığının əks olunduğu güzgülü divarlar sanki alışıb yanır və möhtəşəmlik yaradırdı.

XIX əsrdə güzgüyə aludəçilik bir qədər səngidi. XX əsrdə isə güzgü dekorativ əşya rolunu demək olar ki, itirdi və məişət təyinatı üzrə istifadə olunmağa başladı. Son yüz ildə güzgünün keyfiyyəti xeyli dəyişib. XIX əsrin sonunda şüşə onu hazırlayanların sağlamlığına mənfi təsir göstərən civə-qalay amalqaması çəkilməsi üsulu gümüşləmə üsulu ilə əvəzləndi. Bu üsul indi də güzgü istehsalında tətbiq olunur.

Dövrümüzdə güzgünün tətbiq sahəsi getdikcə genişlənir. Yastı, qabarıq, silindrik səthli güzgülərdən elm və texnikada (avtomobil faralarında, projektorlarda, fotoaparatların obyektivlərində, mikroskoplarda) geniş istifadə olunur. Astronomik və spektral cihazlar son dərəcə dəqiq hazırlanır.

**Zaman ötdükcə güzgüdən istifadə kütləvi hal almışdır. Belə bir fikir var ki, evdəki köhnə güzgü təzəsi ilə əvəz olunanda adamın ovqatı yaxşılaşır və o, özündə yüngüllük hiss edir.**

**● A. HÜSEYNOV**